https://doi.org/10.59849/3006-1342.2025.1.79
UOT 94(479.24)

*Röya Asif qızı Həsənova*
*Böyük laborant*
*AMEA Gəncə Bölməsi*
*Gəncə ş., Heydər Əliyev pr. 419.*
*E-mail: hesenovar 727@gmail.com*

# GƏNCƏ: ŞƏRQİN İLK DEMOKRATİK RESPUBLİKASININ PAYTAXTI

*Məqalədə Cümhuriyyət dövründə Gəncənin tarixi məqamları xatırlanmış, şəhərin siyasi-ictimai mühiti təhlilə cəlb edilmişdir və dövrün bir sıra tarixi fakltarına aydınlıq gətirilmişdir. Eyni zamanda şəhərin tarixi adının özünə qaytarılması ilə bağlı məqamlar, AXC-nin Gəncədə qəbul etdiyi qərarlar göstərilmişdir. Dahi Nizami Gəncəvinin, qəhrəman Cavad xanın ruhunu özündə yaşadan Gəncə şəhəri tarixən azadlıq, milli müstəqillik yoluna işıq saçan məşəl olmuşdur.*

*Açar sözlər:* Azərbaycan Xalq Cümhuriyyəti, Gəncə, Cümhuriyyətin Gəncə dövrü, müstəqillik, islahatlar, dövlətçilik

## *Giriş*

1918-1920-ci illərdə bütün müsəlman Şərqində ilk parlamentli, demokratik respublikanın Azərbaycanda qurulması çox mühüm tarixi hadisə idi. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə istiqlalımız və dövlətçiliyimiz bərpa edildi. Ulu Öndər Heydər Əliyev də qeyd etdiyi kimi "Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycanda yaranması xalqımızın o illər ərəfəsində – XIX əsrin sonu - XX əsrin əvvəllərində milli müstəqillik duyğuları ilə yaşaması ilə bağlıdır. Xalqımızın qabaqcıl şəxsiyyətləri, ziyalıları xalqımızda milli azadlıq duyğularını gücləndirmiş, milli oyanış əhval-ruhiyyəsi yaymış və bunların hamısı Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır."

*1.Azərbaycan Xalq Cümhuriyyətinin yaranması.* XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan öz tarixi-mədəni, sosial-siyasi inkişafına görə iki əsas mərkəzə - Bakı və Gəncə şəhərlərinə malik idi. Əsasən, neft sənayesinin inkişafı ilə əlaqədar daha politexnik və çoxmillətli mərkəz kimi formalaşmış Bakıda siyasi proseslər adətən, Rusiyanın təsiri altında dəyişirdi.

Milli ənənələrin daha güclü olduğu Gəncə isə etnik cəhətdən yekcins olmaqla yanaşı, həm də kifayət qədər milli ziyalı təbəqəsinə malik idi. 1905-ci ildə Gəncədə Yusif bəy və Həmid bəy Yusifbəyovlar, Ələkbər bəy Rəfibəyov, Ələsgər bəy Xasməmmədov kimi ziyalıların rəhbərliyi ilə "Türk Sosialist- Federalist İnqilab Komitəsi" yaradılmışdı. Bu təşkilat Azərbaycana muxtariyyət verilməsi və Rusiyanın federativ şəkildə qurulması ideyasını ortaya qoyan ilk siyasi qüvvə oldu. Birinci Dünya müharibəsi başladıqdan sonra isə Azərbaycanın siyasi liderləri fəaliyyət dairələrini daha da genişləndirib əsasən keçmiş "difai"çilərdən ibarət olan yeni təşkilat –"Gəncə Milli Komitəsi"-ni yaratdılar [6, s.124].

Beləliklə, 1917-ci ildə çar rejimi devrildikdən sonra, Azərbaycanda real hakimiyyətə malik iki qüvvə formalaşmışdı: Stepan Şaumyanın rəhbəri olduğu Bakı Soveti və milli qüvvələrdən ibarət olan Gəncə Milli Komitəsi.

Nəsib bəy Yusifbəylinin rəhbərliyi ilə yaradılan "Türk-Ədəmi-Mərkəziyyət" Partiyası ilk dəfə olaraq, "Azərbaycanın muxtariyyət"ini siyasi bir tələb kimi ortaya qoydu [7].

1917-ci ilin oktyabrında hakimiyyət çevrilişi nəticəsində Cənubi Qafqazdan Rusiyanın Müəssislər Məclisinə seçilən deputatlar Petroqrada və Moskvaya gedə bilmədilər. Bolşevikler

Müəssislər Məclisini buraxdıqdan sonra onlar 1918-ci il fevralın 23-də Tiflisdə Cənubi Qafqazın ali hakimiyyət orqanı olan Zaqafqaziya seymini, başqa sözlə Zaqafqaziya parlamentini yaratdılar.

Mayın 27-də Seymin Müsəlman fraksiyasının üzvləri özlərinin ayrıca iclaslarını keçirərək Azərbaycanın müstəqilliyini elan etmək qərarına gəldilər. Bu məqsədlə Zaqafqaziya seyminin Müsəlman fraksiyası özünü Azərbaycan Milli Şurası, daha doğrusu, Azərbaycan Parlamenti elan etdi. Beləliklə, əslində, Azərbaycanın ilk Parlamenti yaranmış oldu və ilk parlamentli respublikanın təməli qoyuldu. Həmin iclasda Azərbaycan Milli Şurasının sədri seçildi. Bu zaman Batumda danışıqlar aparan Məhəmməd Əmin Rəsulzadə qiyabi olaraq Milli Şuranın sədri seçildi. Sədrin müavinləri isə Həsən bəy Ağayev və Mir Hidayət Seyidov təsdiq olundular. Eyni zamanda, Azərbaycan Milli Şurasının mayın 27-də keçirilən iclasında Fətəli xan Xoyski yekdilliklə Milli Şuranın icra orqanının sədri seçildi [4, s.40].

Mayın 28-də Həsən bəy Ağayevin sədrliyi ilə keçirilən Azərbaycan Milli Şurasının tarixi iclasında Azərbaycanın *İstiqlal bəyannaməsi (Əqdnamə* və ya *Misaqi milli)* qəbul edildi.

Beləliklə, Cümhuriyyət xadimləri Azərbaycan tarixində parlament mədəniyyətinin də əsasını qoymuş oldular. Belə ki, onlar İstiqlal bəyannaməsinin 6-cı bəndində "Azərbaycanın başında xalqın seçdiyi Milli Şura durur" fikrini qanuniləşdirərək Milli Şuranın ilk Azərbaycan Parlamenti olduğunu, həm də onun elan etdiyi Cümhuriyyətin Azərbaycan xalqının qanuni dövləti olduğunu təsdiq etdilər [1, s.30].

*2. Cümhuriyyətin Gəncə dövrü.*

Beləliklə, 1918-ci il, mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan edilsə də, bütün Azərbaycanda, ələlxüsus da Bakıda, bolşevik - erməni alyansı “at oynadırdı”. Belə bir şəraitdə Məhəmməd Əmin Rəsulzadənin deyimi ilə desək: “...böylə bir təhlükə qarşısında milləti müdafiə edəcək tək bir Gəncə qalmışdı”.

İyunun 16-da hökumət Tiflisdən Gəncə şəhərinə köçürüldü. Bundan sonra Azərbaycan Xalq Cümhuriyyəti düz 3 ay (93 gün) müddətində Gəncədə fəaliyyətini davam etdirdi. Yeni qurulmuş dövlətin ilk addımları məhz bu şəhərdə atıldı, dövlət strukturları məhz Gəncədə formalaşdı. Xalqın tələbi ilə bağlı yüzə yaxın qərar və qanunun qəbul edildiyi Cümhuriyyətin Gəncə dövrü mühüm hadisələrlə tarixə yazıldı [5, s.116-117].

Beləliklə, Azərbaycan hökuməti müxtəlif dövlətlərə göndərdiyi radioteleqramda qeyd olunan “müvəqqəti paytaxt”ına gəldi. Azərbaycanın istiqlalı uğrunda mübarizə, daha doğrusu istiqlalımızın “olum, ya ölüm?” savaşı Gəncədə gedirdi. Lakin “Gəncə” deməyə bir qədər tələsdik sanki. Çünki “Yelizavetpol” hələ “Gəncə” adlandırılmamış, şəhərin tarixi adı geri qayıtmamışdı. Bəs nə üçün Azərbaycan Demokratik Respublikası yaranan kimi “Gəncə” adını bərpa etmədi? Dövlətçilik baxımından yanaşanda səbəblər aydın olur. Belə ki, AXC ilk bir ay ərzində demokratik idarəçiliyə sahib hökumət strukturu yaratmağa çalışırdı. Cümhuriyyət rəhbərlərinin ideal demokratizmi bütün sahələrdə özünü göstərdi. Onlar XX əsrin əvvəllərində dünyada qərarlaşan dövlətçilik və idarəçilik qəlilblərindən kənara çıxmağa çalışırdılar. Hökumət hər bir qərarı müzakirələrdən sonra qəbul etməyi dövlətçilik normasına çevirmişdi. “Gəncə” adının tələsik geri qaytarılmaması da respublikada dövlətçilik strukturundan irəli gəlirdi.

Cümhuriyyətin Gəncə dövrü tarixi ədəbiyyatlarda 16 iyun – 15 sentyabr 1918-ci il kimi göstərilir. Əslində bu, şərti xarakter daşıyır. Ona görə ki, Azərbaycan Demokratik Respublikası nəinki yarandığı andan, hətta meydana gəlməsi uğrunda mübarizə dövründə belə “Müsavat” yuvası” olan Gəncənin aparıcı rolu olmuşdur. ADR hökuməti Tiflisdə olduğu zaman da Gəncə Azərbaycanın paytaxtı və hərbi qərargahı kimi fəaliyyət göstərirdi [6, s. 274].

Gəncədə AXC-nin tarixində ilk Hökumət böhranı baş verdi. 4 iyun tarixində Azərbaycan Xalq Cümhuriyyəti və Osmanlı İmperiyası arasında Batumda imzalanan “Sülh və

Dostluq müqaviləsi"nin şərtlərinə uyğun olaraq, soyqırıma məruz qalan Azərbaycan xalqının yardımına gəlmişdi. Nuru Paşa xatirələrində qeyd edirdi: "Gəncə xalqı türk ordusunu qarşılamaq üçün şəhər meydanına toplaşmışdı. Dövlət dairələri və məktəblər tətilə çıxmış, tələbələr əsgərlərin gələcəyi yolun iki tərəfində düzülmüşdülər. Bütün meydan hıçqıra-hıçqıra sevinc göz yaşı tökürdü".

Lakin Gəncədə olan Qafqaz İslam Ordusunun baş komandanı Nuru paşa ilə Milli Şura üzvləri arasında fikir ayrılığı yaranmışdı. Hökumətin inqilabi tədbirlər həyata keçirə biləcəyindən narahat olan Azərbaycan burjuaziyası və mülkədarlarının işə qarışması və bunun da nəticəsində Nuru paşa ilə Azərbaycan Milli Şurası və Hökuməti arasında ixtilafın yaranması vəziyyəti daha da ağırlaşdırdı. Belə vəziyyətdə çətinliklə qazanılan müstəqilliyin itirilməsi təhlükəsi yaranırdı. İyunun 17-də M.Ə.Rəsulzadənin rəhbərliyi ilə Milli Şuranın apardığı qızğın müzakirələrdən sonra böhran çox çətinliklə də olsa aradan qaldırıldı.

Fəaliyyət göstərməyin mümkünsüzlüyünü görən, ölkədə yaranan vəziyyəti və konkret tarixi şəraiti nəzərə alan Azərbaycan Milli Şurası iyunun 17-də Gəncədə iki mühüm qərar qəbul etməli oldu:

1) öz fəaliyyətini müvəqqəti olaraq dayandırmaq;

2) bütün hakimiyyəti (həm qanunvericilik, həm də icra hakimiyyətini) Müəssislər Məclisi çağırılana kimi Fətəli xan Xoyskinin sədrliyi ilə yaradılan yeni-ikinci Müvəqqəti hökumətə həvalə etmək. Yəni, artıq hökumət həm qanunverici, həm də icraedici orqan funksiyasını yerinə yetirirdi.

Hökumətin tərkibində Məmməd Həsən Hacınski, Nəsib bəy Yusifbəyli, Əlimərdan bəy Topçubaşov, Behbud xan Cavanşir, Xəlil bəy Xasməmmədov, Xosrov Paşa bəy Sultanov, Xudadat bəy Rəfibəyov təmsil olunurdular [2, s. 39-40].

Qafqaz İslam Ordusunun fəaliyyəti ölkənin müdafiəsinin təmin olunmasının ilkin mərhələsini təşkil edir. Bu mərhələdə müstəqilliyin təminatçısı olan milli qoşun hissələrinin yaradılmasına rəhbərlik də türk hərbçilərinə həvalə edilmişdi. Ancaq ölkə ərazisində ciddi döyüşlərin getdiyi gərgin bir vaxtda milli qoşun hissələrinin formalaşdırılması üçün normal şərait yox idi. Bununla belə, bütün imkanlar dövlət müstəqilliyinin qorunmasına səfərbər olunmuşdu. Hökumət tərəfindən "Hərbi vəziyyətin elan olunması haqqında" qərar, "Hərbi vəziyyətin elan olunması haqqında qərara əlavə" kimi mühüm sənədlər qəbul edildi və 19 iyunda hərbi vəziyyət elan edildi. 26 iyun 1918-ci ildə Azərbaycan dövlətinin ilk nizami hərbi qüvvəsi olan müsəlman korpusu əsasında "Əlahiddə Azərbaycan Korpusu" yaradıldı. Çağırış səfərbərlik işləri yenidən təşkil edildi, bir sıra bölgələrdə könüllü xalq dəstələri və zabit kursları yaradıldı. Ən başlıcası, məhz Gəncədə Milli Ordumuzun təşkili sahəsində ilk addımlar atıldı, Azərbaycan dövlətçiliyini qorumaq, ölkəmizin ərazi bütövlüyünü təmin etmək məqsədilə vacib işlər görüldü, hərbi nazirlik, hərbi zavod yaradıldı.

1918-ci ilin iyun-avqust aylarında Gəncədəki erməni quldur dəstələri tərksilah edildi, Qaraməryəm, Kürdəmir, Ağsu, Şamaxı, Salyan döyüşləri uğurla başa çatdırıldı. Nəhayət, Birinci Qafqaz Qırmızı Korpusunun və ingilis hərbi qüvvələri tərəfindən müdafiə olunan "Sentrokaspi diktaturası"nın qoşunlarına ağır zərbə endirildi. 1918-ci il sentyabrın 15-də Bakı şəhəri tamamilə azad edilərək müstəqil Azərbaycan dövlətinin paytaxtına çevrildi.

Bakının azad edilməsi xəbərini sentyabrın 15-də Gəncədə, Yelizavetpol qubernatorunun mətbəəsində çap olunan "Azərbaycan" qəzeti xəbər verdi. Ümumilikdə dörd səhifədən ibarət olan qəzetin iki səhifəsi Azərbaycan türkcəsində, iki səhifəsi isə rus dilində nəşr olunurdu. Nəşrinə Gəncədə başlanan qəzetin burada cəmi dörd nömrəsi çap edilmişdi [3].

Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda çox mürəkkəb şəraitdə mübarizəyə başlayan müvəqqəti milli hökumətin fəaliyyətinin Gəncə dövrü milli dövlətçiliyimiz üçün bir neçə əhəmiyyətli qərarların qəbulu ilə tarixin yaddaşına həkk olunmuşdur. Belə ki, 27 iyun 1918-ci ildə türk dili (Azərbaycan türkcəsi) dövlət dili elan olundu. [5]

Azərbaycan Xalq Cümhuriyyəti vətəndaşlığı haqqında əsasnamə 1918-ci il 23 avqust tarixli qərarı ilə təsdiq olundu. Bundan əlavə, al qırmızı, ay-ulduzlu bayrağımız ilk dəfə məhz Gəncədə ucaldıldı.

Həmçinin Qaryagin qəzası "Cəbrayıl qəzası" adlandırıldı, Ağdaşa isə şəhər statusu verildi. Bunlarla yanaşı, Zaqatala dairəsi Azərbaycan Cümhuriyyətinin tərkibinə daxil edilmişdi.

Dövlətin maliyyə, sosial-iqtisadi əsaslarını yaratmaq, sərhədlərdə mühafizə və gömrük postlarının təşkil edilməsi və başqa istiqamətlərdə ciddi addımlar atıldı. 1918-ci ildə baş vermiş mart qırğınlarını, mənfur daşnakların Azərbaycan xalqına qarşı törətdikləri cinayətləri araşdırmaq üçün Fövqəladə Təhqiqat Komissiyası yaradıldı. Bu komissiya qısa müddətdə 36 cild, 3500 vərəqdən və 100-dən çox fotoşəkildən ibarət olan təhqiqat materialları hazırladı. Bu məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün konkret addımlar atıldı [1, s.28].

Təəssüflər olsun, şanlı Cümhuriyyətimiz cəmi 23 ay yaşadı. 1920-ci il aprel ayının 27-də Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyəti bolşeviklər tərəfindən devrildi. Belə vəziyyətdə ilk dəfə sovetlərə qarşı dövlətçilik və azadlıq səsini qaldıran yenə də Gəncə sakinləri oldu. İşğalçı ordunun özbaşınalığına, günahsız insanların güllələnməsinə vətənpərvər gəncəlilər səssiz qala bilmədi və tariximizin şanlı səhifələrindən olan Gəncə üsyanı baş verdi.

Ceyhun Hacıbəyli Gəncə üsyanı haqqında qeyd edirdi: "Gəncə üsyanı millətimizin şərəf və namusunun yenidən kəsbi, etibar qazandığı bir dastandır. Gəncədə may ayında türk qanı 27 aprel hadisəsi hərəkatında millətimizə atılan ləkəni silib götürdü. Beləliklə, Gəncə öz tarixinin sovet dönəmini üsyanla başlamış oldu". Lakin sayca və hərbi təchizat baxımından düşməndən xeyli zəif olan Gəncənin milli mücahidləri qanlı döyüşlərdən sonra məğlub oldular, rus ordusunun yeddi min nəfərdən çox hərbi qüvvəsi məhv edildi. Gəncə döyüşçülərindən isə iyirmi minə qədəri şəhid oldu [7].

Azərbaycan Xalq Cümhuriyyəti dövlətçilik tariximizin şanlı dövrü kimi xalqımız tərəfindən daim yad ediləcək və heç vaxt unudulmayacaq [4, s.21].

*Nəticə.* Göründüyü kimi təsadüfi deyil ki, 1918-ci il mayın 28-də müstəqilliyini elan edən Azərbaycan Xalq Cümhuriyyətinin birinci paytaxtı Gəncə şəhəri olmuşdur. Azərbaycan Respublikası Tarix Arxivinin fondlarında mühafizə olunan sənədlərdən bəlli olur ki, 93 gündə (Gəncə dövründə) Azərbaycan Xalq Cümhuriyyəti 210 hüquqi-dövlətçilik aktını hazırlamış və qəbul etmişdir. Bu sənədlərdə Cümhuriyyətin qanunverici bazasının tam və yüksək səviyyədə yaradılması göstərilmişdir. Həmçinin, Bakıda ictimai hərəkat xadimləri arasında sosial-demokratiya qüvvətli olduğu halda, Gəncədə olanların milli-demokratik hərəkatın tərəfdarı olduğu da tədqiqat prosesində sənədlər tərəfindən təsdiq edilib.

## ƏDƏBİYYAT


1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Bakı. 2004. 440 səh.
2. Azərbaycan Xalq Cümhuriyyəti: 100 sual, 100 cavab. – Bakı: Mütərcim, 2018. – 148 səh.
3. "Azərbaycan" qəzeti, 15 sentyabr 1918.
4. Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Bölməsi. Azərbaycan Xalq Cümhuriyyətinin Gəncə Quberniyasından Olan Dövlət xadimləri. Gəncə-2018. «Elm» Nəşriyyatı. 350 s.
5. Mustafa Nazim. Azərbaycan Xalq Cümhuriyyəti işığında (1918 -1920) Bakı, "ULU " , 2018 , 268 s.
6. Sadıqov H. Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı və mübariz qərargahı Gəncə. (Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunur). Gəncə, 2018. 521 səh.
7. https://ikisahil.az/post/48951-news-48951/ İlyasov V. AXC nə üçün Gəncəni paytaxt seçmişdi?

УДК 94(479.24)

*Роя Асиф Гасанова*
*НАНА Гянджинское отделение*

ГЯНДЖА: СТОЛИЦА ПЕРВОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ ВОСТОКА
*РЕЗЮМЕ*

*Ключевые слова:* Азербайджанская Демократическая Республика, Гянджа, Гянджинский период Республики, независимость, реформы, государственность

Основная цель статьи - вспомнить исторические моменты Гянджи в период Республики, проанализировать политическую и социальную обстановку города, а также прояснить ряд исторических фактов того периода. В то же время в ней обсуждаются моменты, связанные с возвращением исторического названия города, решения, принятые АДР в Гяндже. Город Гянджа, хранящий живой дух великого Низами Гянджеви и героя Джавад-хана, исторически был факелом, сияющим на пути свободы и национальной независимости.

UDC 94(479.24)

*Roya Asif Hasanova*
*Ganja Branch of ANAS*

GANJA: THE CAPITAL OF THE FIRST DEMOCRATIC REPUBLIC IN THE EAST
*SUMMARY*

*Key words*: Azerbaijan Democratic Republic, Ganja, Ganja period of the Republic, independence, reforms, statehood

The main purpose of the article is to recall the historical moments of Ganja during the Republic period, to analyze the political and social environment of the city, and to clarify a number of historical facts of the period. At the same time, it discusses the moments related to the return of the city's historical name to itself, the decisions made by ADR in Ganja. Ganja city, which keeps alive the spirit of the great Nizami Ganjavi and the hero Javad Khan, has historically been a torch shining on the path of freedom and national independence.

***Daxil oldu: 19.02.2025-ci il***